Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası
Azərbaycan Qeyri-Hökumət Təşkilatları Koalisiyası
For Improving Transparency in Extractive Industries
The Coalition of Azerbaijan Non-Goverment Organization

# "MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIĞIĞN ARTIRILMASI" KOALİSİYASININ İNFORMASİYA BÜLLETENİ

# № 17


## Redaksiya heyəti

**Redaktor:**
Dünya Sakit

**Məsul katib:**
Süheylə Cəfərova

**Tərcüməçi:**
Nərmin Mirzəyeva



## Ünvan:
AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə

**Tel:** 598 44 31, Faks: 598 44 31
**Mob.:** 357 04 62
**E-mail:** office@eiti-az.org


## Mündəricat


- Dövlət investisiya xərcləmələri müzakirə olunub (2)
- "Əsrin kontraktı"nın ildönümü müzakirələrlə qeyd edilib (3)
- Dövlət Neft Şirkəti Koalisiyanın sorğusuna cavab vermir (4)
- Koalisiya Azərbaycanda EİTİ prosesini qiymətləndirir (4)
- Fərdi hesabatlılığa keçidlə bağlı şirkətlərlə iş aparılacaq (5)
- Koalisiyanın ekspertləri Neft Fondu haqqında qanun layihəsi hazırlayır (6)
- Qeyri-qaz-neft hasilat sənayesinin Şəffaflıq Təşəbbüsünə cəlb olunması imkanları araşdırılır (7)
- Vətəndaşlar neft gəlirlərinin idarəçiliyini kimə etibar edir? Koalisiya 500 nəfər arasında sorğu keçirib (7)
- Prezidentliyə namizədlərə müraciət olunub (9)
- Tranzit gəlirləri də EİTİ-ya cəlb olunmalıdır (10)
- İnqilab Əhmədov MSŞT İdarə Heyətinə əvəzedici üzv seçilib (10)
- MSŞT-nin tətbiqində ən yaxşı təcrübə və vasitələr müzakirə olunacaq (10)
- Mədən sənayesində kontrakt hüququna dair seminar təşkil olunub (11)
- Amerikalı tələbələrlə görüş keçirilib (12)
- Şəffaflıq Təşəbbüsünə dair qətnamə BMT Baş Assambleyasında qəbul olunub (13)
- İsveç MSŞT-ni dəstəkləyir (13)
- BTC-dəki yanğın builki gəlirimizi 1 milyard dollar azaldıb (13)
- "Azəri-Çıraq-Günəşli"də qazsızması baş verib
  Əsas platformalarda hasilat 1 aya yaxın dayandırılıb (14)
- Qazaxıstan neftinin Bakı-Ceyhanla nəqlinə başlanır (15)

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

# Dövlət investisiya xərcləmələri müzakirə olunub



Sentyabrın 11-də İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyası və Milli Büdcə Qrupu "Dövlət xərcləmələri: səmərəlilik və şəffaflıq müstəvisində" mövzusunda Dəyirmi Masa keçiriblər. Dəyirmi Masada müstəqil ekspertlərin 2008–ci ildə dövlət büdcəsindən investisiya layihələrinə ayrılmış vəsaitlərin istifadə istiqamətləri üzrə apardıqları araşdırmaların nəticələri təqdim olunmuş, büdcə investisiyalarının struktur və dinamikası üzrə baş verən dəyişikliklər və onun sosial-iqtisadi təsirləri ilə bağlı müzakirələr aparılmışdır.

Tədbirdə MSŞA Koalisiyasının kordinatoru Qubad İbadoğlu və Milli Büdcə Qrupunun koordinatoru Emil Ömərovun giriş sözündən sonra MBQ üzvü Zohrab İsmayılov "Dövlət xərcləmələri: səmərəlilik və şəffaflıq müstəvisində" mövzusunda təqdimatla çıxış etmiş və müzakirələr başlamışdır. Müzakirələrdə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin baş müşaviri Paul Davis, ABŞ səfirliyinin İqtisadiyyat şöbəsinin əməkdaşı Səlim Arıtürk, ACİ-YF-nin icraçı direktoru Fərda Əsədov, Milli Büdcə Qrupunun üzvü Azər Mehtiyev, İqtisadi Təşəbbüslərə Yardım Birliyinin sədr müavini Rövşən Ağayev və Azərbaycan Jurnalistlərinin Araşdirmaçı Şəbəkəsinin üzvü Çingiz Sultansoy çıxış etmişdir.

Tədbirdə dövlət qurumlarından - Rabitə və Səhiyyə Nazirliklərinin, beynəlxalq təşkilatlardan- ABŞ BİA, BVF və ATƏT-in, diplomatik korpusdan - ABŞ səfirliyinin nümayəndələri, QHT, KİV təmsilçiləri və müstəqil ekspertlər iştirak edib.

Tədbirin sonunda Dəyirmi Masa iştirakçıları səslənən fikirləri və Milli Büdcə Qrupunun araşdırmaları nəticəsində irəli sürülən təkliflərin Tövsiyələr Paketi şəklində hökümətə və parlamentə təqdim olunması, eyni zamanda sual doğuran bir sıra məsələlərlə bağlı aidiyyatı orqanlara informasiya sorğusunun göndərilməsi qərara alınıb.

✵ ✵ ✵

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

# “Əsrin kontraktı”nın ildönümü müzakirələrlə qeyd edilib




Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası sentyabrın 19-da Caspian Plazanın konfrans zalında “Əsrin kontraktının 14-cü ili və neft-qaz sənayesində şəffaflıq təşəbbüsü” mövzusunda Dəyirmi Masa təşkil edib. Tədbirdə dövlət qurumlarının, beynəlxalq təşkilatların, diplomatik korpusların, yerli xarici şirkətlərin nümayəndələri, QHT və KİV təmsilçiləri, müstəqil ekspertlər iştirak edib.

Dəyirmi Masada İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin direktoru Sabit Bağırov İctimai Birliklərin MSŞA Koalisiyası adından qonaqları salamlayaraq 14 il bundan əvvəl “Azəri-Çıraq-Günəşli” yatağının birgə işlənməsi üzrə xarici şirkətlərlə Azərbaycan hökumətinin imzaladığı neft kontraktının Azərbaycana verdiyi siyasi, iqtisadi və sosial dividendlərdən danışıb. Sonra Koalisiyanın kordinatoru, İqtisadi Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Qubad İbadoğlu “Əsrin kontraktı”ndan gözləntilər və bu günün gerçəklikləri: sosial-iqtisadi kontekstdə qiymətləndirmə” mövzusunda təqdimatla çıxış edib. Təqdimat zamanı koordinator neftin Azərbaycan iqtisadiyyatında oynadığı rolundan danışaraq qeyd edib ki, 2007-ci ilin yekunlarına görə neft sektorunun ÜDM-də payı 55,8 faizə, dövlət büdcəsində xüsusi çəkisi 60,3 faizə çatıb. Sonra Q.Ibadoğlu Norveç Krallığının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi layihə çərçivəsində 500 respondent arasında aparılmış sorğunun nəticələrini açıqlayıb.

Koalisiyanın adından vətəndaş cəmiyyətinin narahatlıqlarını Dəyirmi Masa iştirakçılarının nəzərinə çatdıran koordinatorun sözlərinə görə, bu narahatlıqlara neft gəlirlərinin yerləşdirilməsi üçün mümkün təhlükələr, şirkətlərin fərdi hesabatlılığa keçməməsinin fəsadları, mənfəətin bölüşdürülməsi sxemində ziddiyyətli məqamların aşkarlanması daxildir. Sonra Neft Araşdırmaları Mərkəzinin rəhbəri Koalisiyanın eksperti İlham Şaban “Əsrin kontraktı”nın imzalanmasından ötən dövr ərzində əldə edilmiş neft-qaz gəlirlərinin həcmi və onun bölgüsü ilə bağlı araşdırmalarının ilkin nəticələrini təqdim edib.

Təqdimatlar bitəndən sonra müzakirələr aparılıb. İlk olaraq çıxış edən Norveç Krallığının Azərbaycandakı səfiri Jon Ramberg diqqəti keçirilmiş sorğunun nəticələrinə

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

cəlb edib. Səfir qeyd edib ki, sorğu hələ də əhalinin bir hissəsinin neft gəlirlərinin idarəedilməsi ilə bağlı yetərincə məlumatlara malik olmamasını göstərib. Bu isə İctimai Birliklərin MSŞA Koalisiyasının əhəmiyyətini daha da artırır.

Tədbirdə MSHT –nin Beynəlxalq İdarə Heyətinin üzvü Jonas Moberg də çıxış edib. O, diqqəti şirkətlərin fərdi hesabatlılığına cəlb edərək qeyd edib ki, MSŞT prinsiplərinə görə şirkətlər tərəfindən fərdi hesabatların təqdim olunması mütləq şərt deyil: “Lakin buna baxmayaraq, yaxşı olardı ki, siz fərdi hesabatlılıq kompaniyasını genişləndirəsiniz.” J.Moberg bəzi ölkələrdə MSŞT-nin dövlət idarəçiliyinin xüsusi qaydalarına riayət etdiyini və hətta bu istiqamətdə qanunların mövcudluğunu bildirdi. Bu isə MSŞT-ni daha dinamik prosesə çevirib: “Biz hesab edirik ki, şirkətlərlə hökumət arasında , hökumətlə isə vətəndaş cəmiyyəti arasında hesabatlılıq olmalıdır.”

✵ ✵ ✵

## Dövlət Neft Şirkəti Koalisiyanın sorğusuna cavab vermir

Sentyabrın 9-da Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyası Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə informasiya sorğusu göndərib. Sorğuda Azərbaycan Respublikasının “İnformasiya əldə etmək haqqında” Qanununa əsasən aşağıdakı məlumatların İctimai Birliklərin MSŞA Koalisiyasına verilməsi xahiş edilib: Azərbaycan Respublikasının Azəri-Çıraq-Günəşli yatağının istismarı üzrə imzalanmış Hasilatın Pay Bölgüsü müqaviləsində 2003-2007-ci illər üzrə və 2008-ci ilin 1-ci yarısına qədər mənfəət neftindən götürdüyü pay ( illər üzrə natural ifadədə və dəyər/faizlə).

Xatırladaq ki, Koalisiya “Əsrin müqaviləsi” üzrə Azərbaycanın əldə etdiyi mənfəət neftinin miqdarı və onun yataqdan əldə edilən mənfəət neftinin ümumi həcmində payı ilə bağlı müvafiq sorğunu Azərbaycan Respublikasının Dövlət Neft Fonduna göndərmişdi. Belə ki, hökumət və şirkətlərin ödəmələrə dair hesabatlarını və açıqlanan rəsmi məlumatları analiz edən Koalisiya ekspertləri Azərbaycanın mənfəət neftindən həqiqətən müqavilədə nəzərdə tutulan həcmdə pay alması sahəsində narahatlıq doğuran məqamlar aşkarlayıblar. Bununla bağlı ARDNF-dən ANS telekanalına verilən açıqlamada Koalisiya ekspertlərinin hesablamalarında yanlışlığa yol verildiyi bildirilib. Bu səbəbdən də Koalisiya Şurasının qərarı ilə ARDNF-yə informasiya sorğusu ilə müraciət olunaraq rəsmi hesablamalar, həmçinin onların əsasında dayanan hasilat və pay bölgüsü göstəricilərinin ekspertlərə təqdim olunması istənilib. Fond isə bu məlumatın sahibi olaraq sazişdə Azərbaycan hökumətini təmsil edən ARDNŞ-nin çıxış etdiyini əsas gətirərək, sorğunun həmin təşkilata göndərilməli olduğu cavabını verib. Bundan sonra Koalisiya ARDNŞ-yə yuxarıda qeyd olunan sorğu ilə müraciət edib.

Qeyd edək ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün icrasına dair Memorandumun tərəflərindən biri olan ARDNŞ hələ də Memorandumun digər tərəfinin – Koalisiyanın sorğusuna cavab verməyib.

✵ ✵ ✵

## Koalisiya Azərbaycanda EİTİ prosesini qiymətləndirir

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının ekspertləri Azərbaycanın Mədən Sənayesinndə Şəffaflıq Təşəbbüsünün icrası prosesini

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

qiymətləndirəcəklər. Koalisiyanın Açıq Cəmiyyət İnstitutu Yardım Fondu tərəfindən maliyyələşdirilən proqram fəaliyyətinin bu istiqamətinə Sabit Bağırov rəhbərlik edir.

S.Bağırovun sözlərinə görə, tədqiqatın bir istiqaməti MSŞT-nin Azərbaycanda tətbiqinin nəticələrini (vətəndaş cəmiyyətinin iştirakı və təmsilçiliyi (auditorun seçilməsində iştirak, auditorların hesabatlarına koalisiyanın rəyləri və onların təsiri, Memorandum tərəflərinin yaratdığı işçi qrupda Koalisiyanın iştirakı, MSŞT - nin inkişafına dair Memorandumun digər tərəflərinə Koalisiyanın təklifləri və bunun nəticələri, Koalisiyanın beynəlxalq səviyyədə fəaliyyəti, Koalisiyanın region ölkələrindəki vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlığı, Koalisiyada dəyişikliklər, Koalisiyanın fəaliyyəti); Hökumət Komissiyasının fəaliyyəti, o cümlədən beynəlxalq səviyyədəki təşəbbüsləri (BMT); şirkətlərin MSŞT-də iştirakı (auditor hesabatları nəyi göstərir?); Azərbaycanın MSŞT-nin digər ölkələrdəkindən əsas fərqləri; MSŞT katibliyinin fəaliyyəti və Azərbaycanla əlaqədar qiymətləndirmə təşəbbüsləri; MSŞT-nin ölkədəki tətbiqinin yaratdığı imkanlar və onardan vətəndaş cəmiyyətinin yararlanma səviyyəsinin qiymətləndirilməsini əhatə edəcək.

İkinci istiqamət Təşəbbüsün Azərbaycanda inkişafı yolları və perspektivləri olacaq: "Burada şirkətlərin fərdi şəkildə hesabatlarının açıqlanması hansı təhlillərə yol açır; hesabat formalarının genişləndirilməsi nə verə bilər?; hasilat sənayesinin digər sahələrinin MSŞT tərəfindən əhatə edilməsi imkanları və problemləri; MSŞT və ekologiya problemləri; MSŞT üzrə hesabatların könüllülük prinsipindən icbari olmasına keçid mümkündürmü və bu, nə vəd edir? Xüsusi qanuna ehtiyac varmı?; auditdə vətəndaş cəmiyyəti iştirakının artırılması yolları məsələləri araşdırılacaq. Üçüncü istiqamət isə Təşəbbüsün inkişafına dair Koalisiyanın təkliflərinə mane ola biləcək amillərin təhlilindən ibarət olacaq. Nəhayət, sonda biz dövlət qurumlarına, şirkətlərə, vətəndaş cəmiyyəti təmsilçilərinə, beynəlxalq qurumlara tövsiyələr hazırlayacağıq".

❋ ❋ ❋

## Fərdi hesabatlılığa keçidlə bağlı şirkətlərlə iş aparılacaq

Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda icrasında iştirak edən tərəflərin – Hökumət komissiyası, şirkətlər və QHT Koalisiyasının iyunun 1-də keçirilən görüşündə şirkətlərin fərdi hesabatlılığa münasibətinin aydınlaşdırılması barədə qərar qəbul olunub. Həmin qərara əsasən Hökumət komissiyası adından Dövlət Neft Fondu şirkətlərə sorğu ilə müraciət edib. Fonddan verilən məlumatdan aydın olur ki, bu günə qədər MHŞT-yə qoşulmuş 26 şirkətdən (hal-hazırda şirkətlərin sayı 25-ə bərabərdir, KonokoFillips şirkəti artıq Azərbaycanda fəaliyyət göstərmir) 22-si sorğunu cavablandırıb.

"Middle east petroleum", "Binagadi oil company", bp, "Shell" və "Statoi-Hydro" audit şirkətinə təqdim etdikləri hesabatın ictimaiyyətə (MSŞA Koalisiyasına) açıqlanmasına razı olduqlarını bildiriblər.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

"Karasu operating company", "Petro-HongKong-Pirsaat Oil Limited", "Azgerneft", "Commonwealth, "Itochu oil exploration (Azerbaijan) Inc.", "ExxonMobil", "Devon", "Chevron", "Total", "Rafi Oil FZE", "Shirvan Oil", "Anshad petrol" və "Apşeron Operating" şirkətləri fərdi hesabatlarını açıqlamaq fikri ilə razılaşmır. "Hess (ACG) Limited" və ARDNŞ isə yalnız bütün şirkətlər bu işə razı olduğu təqdirdə fərdi qaydada hesabat verə biləcəyini açıqlayıb. Çox maraqlıdır ki, 2005-ci ildə Koalisiyanın keçirdiyi sorğuya cavabında ARDNŞ fərdi hesabat verməyə razı olduğunu bildirmişdi.

Qeyd edək ki, şirkətlərin fərdi hesabatlılığa keçidi məsələsində təşəbbüskar MSŞA Koalisiyasıdır. Koalisiyanın builki proqram fəaliyyətinin bir istiqamətini məhz bu məsələ təşkil edir. Həmin fəaliyyət ARDNŞ və daha 4 şirkətlə fərdi hesabatlılığa keçid istiqamətində iş aparılmasını nəzərdə tutur. Koalisiyanın ekspertləri ARDNŞ-nin fəaliyyəti və maliyyə axınlarının şəffaflığının qiymətləndirilməsi üçün qiymətləndirmə sistemi yaradacaq, şirkətlərin MSŞT çərçivəsində fərdi hesabatlar açıqlaması üçün imkanları tədqiq edəcək, müvafiq hesabat hazırlayacaq və şirkətlərlə görüşlər keçirəcəklər. Fərdi hesabat açıqlanması üzrə vəkillik işinin fokusları ARDNŞ-yə və fərdi hesabat açıqlanmasında tərəddüd və ya imtina edən 4 xarici şirkətə yönələcək.

✵ ✵ ✵

## Koalisiyanın ekspertləri Neft Fondu haqqında qanun layihəsi hazırlayır

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Dövlət Neft Fondu haqqında ayrıca qanun layihəsinin hazırlanması işinə başlayıb. Layihəni Koalisiya Şurasının üzvü, hüquqşünas Əliməmməd Nuriyevin rəhbərliyi ilə ekspertlər altı ay müddətində hazırlamalıdılar.

Açıq Cəmiyyət İnstitutu Yardım Fondu tərəfindən maliyyə cəhətdən dəstəklənən bu fəaliyyətin məqsədi DNF haqqında qanun layihəsinin hazırlanması və onun populyarlaşması üçün tədbirlər görülməsidir. Layihə rəhbəri Ə.Nuriyevin sözlərinə görə, "Neft Fondu haqqında" Qanun neft gəlirlərindən ilk növbədə milli maraqlar, ümumdövlət mənafeləri, bugünkü və gələcək nəsllərin, bütövlükdə cəmiyyətin maraqları nəzərə alınmaqla, uzalşdırılmqla səmərəli şəkildə istifadə olunması, bu zaman şəffaflıq, hesabatlılıq, məsuliyyətlik, ictimai nəzarətin təmin edilməsini şərtləndirən, buna müvafiq imkanlar yaradan əsas mexanizmlərdən biri olmalıdır: "Bu qanun mahiyyəti etibarı ilə bütün cəmiyyətin mənafelərinə toxunduğundan bütün maraqlı tərəflərin mövqələrinin, maraqlarının, rəy və təkliflərinin öyrənilməsi, nəzərə alnması və müvafiq olaraq uzlaşdırılaraq sistemləşdirilməsi, eləcə də dünya təcrübəsi öyrənilməklə mükəmməl bir layihə ortaya qoyulması zəruri şərtdir."

Qanun layihəsi hazırlandıqdan sonra Koalisiya onun bütün maraqlı tərəflərin iştirakı ilə müzakirələrini təşkil edəcək, sənəd media kampaniyası vasitəsilə geniş ictimaiyyətə, həmçinin rəsmi qaydada hökumətə təqdim olunacaq.

✵ ✵ ✵

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Qeyri-qaz-neft hasilat sənayesinin Şəffaflıq Təşəbbüsünə cəlb olunması imkanları araşdırılır

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Azərbaycanda qeyri-neft-qaz hasilat sənayesinin də Şəffaflıq Təşəbbüsünə cəlb olunması üçün fəaliyyətini genişləndirir. Bu, Koalisiyanın cari ili əhatə edən proqram fəaliyyətində ayrıca istiqamət kimi əksini tapıb. Şura üzvü İlham Hüseynlinin rəhbərliyi ilə Koalisiya ekspertləri ölkənin qeyri-neft-qaz hasilat sənayesinin vəziyyətini, ayrı-ayrı sahələrdə istehsal həcmləri, fəaliyyətlər, həyata keçirilən layihələr və bütün bunların ətraf mühitə təsirini araşdıraraq tövsiyələr hazırlayacaqlar.

İ.Hüseynlinin verdiyi məlumata görə, Azərbaycanda neft və qazla yanaşı digər təbii ehtiyatlar da hasil edilir və bunların sayəsində əldə olunan gəlirlər neft-qaz gəlirlərindən aşağı olsa da, onların da MSŞT hesabatlılığı ilə əhatə edilməsi son dərəcə vacib və zəruridir: "Azərbaycan ərazisində onlarla qızıl,polimetal,mis-porfir və bir neçə əhəmiyyətli dəmir filizi yatağları mövcud olmaqla yanaşı,o nların böyük bir hissəsi fəaliyyətdədir. Mədən sənayesində hasil edilən digər qeyri neft-qaz ehtiyatları tikinti materiallarıdır. 2006-cı ilin 1 yanvarına olan məlumata görə, Faydalı Qazıntı Ehtiyatlarının Dövlət Balansında 303 tikinti-inşaat materialları yataqları, o cümlədən 59 mişar daşı, 22 üzlük daşı, 95 gil, 10 sement xammalı, 27 tikinti daşı, 71 qum-çınqıl, 14 qum, 3 bitumlu süxurlar və 2 perlit, pemza yataqları qeydə alınmışdır. Bu ehtiyatlar intensiv hasil edilir. Lakin ictimaiyyət burada əldə edilən gəlirlər barədə tamamilə məlumatsızdır. Digər tərəfdən, Naxçıvan və Gədəbəydə qızıl yataqlarında hasilata başlanması istiqamətində fəal iş aparılır. Bu səbəbdən qeyri neft-qaz təbii ehtiyatlarinin MSŞT prosesinə cəlb olunması son dərəcə vacib və zəruri bir iş olmaqla yanaşı, təmsil olunduğumuz QHT Koalisiyasının əsas hədəf məqsədlərindəndir. MSŞT-nün qeyd edilən sahələrdə tətbiqi müvafiq hesabat formalarının tərtib edilməsini tələb edəcək, çünki mövcud formalar neft-qaz hasilatı üçün nəzərdə tutulub."

✵ ✵ ✵

## Vətəndaşlar neft gəlirlərinin idarəçiliyini kimə etibar edir? Koalisiya 500 nəfər arasında sorğu keçirib

2008-ci ildə Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası tərəfindən Norveç Krallığının Azərbaycan Respublikasındakı səfirliyinin maliyyə dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində 500 respondent arasında sorgu keçirilib. Sorğunun məqsədi vətəndaşların neft gəlirləri barədə məlumat almaq imkanlarını qiymətləndirmək, onların MHŞT və Koalisiyanın fəaliyyətinə dair məlumatlılıq səviyyəsini müəyyənləşdirmək olub.

Sorğuda iştirak edən vətəndaşların 67,88 %-i hesab edir ki, ölkədə neft gəlirləri barədə məlumat əldə etmək imkanlarına malikdirlər. Lakin onlardan yalnız 14,8%-i bu məlumatları yetərli sayır. 53,08 % respondent gəlirlər barədə "qismən" məlumat alır, 28,38% ümumiyyətlə, məlumat ala bilmədiyini bildirir, 3,7% isə bu proseslərlə maraqlanmır.

«Neft gəlirləri barədə məlumatları daha çox hansı mənbələrdən alırsınız?» sualına verilən cavablardan məlum olur ki, informasiya daşıyıcısı olaraq liderlik televiziyaya məxsusdur (56,76 faiz məlumatı TV-lərdən alır). 17,27% məlumat almaq üçün həm də qəzetlərə, 11,1% İnternetə, 2,46 %-i radioya müraciət edir. Respondentlərin 23,44%-i qeyri-rəsmi strukturların açıqlamalarını məlumat almaq üçün ən etibarlı mənbə hesab edib.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Verilən cavablardan məlum olur ki, sorğu iştirakçılarının heç də hamısı neft gəlirlərinin öz həyatlarına təsirini hiss etmirlər. Belə ki, respondentlərin yalnız 38,25% -i bu prosesin onların həyatlarına bu və digər formada təsir etdiyini deyib. Onların yalnız 12,34 %-i birmənalı olaraq müsbət cavab verib. 25,91 % isə bu təsirin çox cüzi olduğunu bildirib. Rəyi soruşulanların 29,61%-i neftdən gəlir əldə olunmasını və onlardan ölkə daxilində istifadə edilməsini yalnız ölkədə gedən tikintilərdən hiss edirlər, 32,08% isə ümumiyyətlə, nə ölkənin neft ölkəsi olmasını, nə ondan gələn gəlirləri, nə də bu gəlirlərin kimə, nəyə, haraya xərclənməsini hiss etmədiyini bildirmişdir.

Maraqlıdır ki, sorğuda iştirak edən vətəndaşlarımızın yalnız 7,4% -i hesab edir ki, neft gəlirlərinin xərclənməsi səmərəli həyata keçirilir. 37,02%-i bu proses qismən qane edir, 43,19% isə neft gəlirlərini idarə olunmasından tamamilə narazıdır. 9,87% -in isə bu barədı məlumatı yoxdur, 2,46% ümumiyyətlə, bu məsələ ilə maraqlanmır.

“Sizcə, Neft gəlirlərinin hansi istiqamətlərə yönləndirilməsi daha səmərəli ola bilər?” sualına verilən cavablardan məlum olur ki, respondentlər sosial-iqtisadi problemlərin həllini(44,42%), iqtisadiyyatın inkişafını (37,52%), gələcək nəsillər üçün yığımı (24,68%), kənd təsərrüfatına subsidiyaların ayrılmasını (22,21 %), infrastrukturların inkişaf etdirilməsini (22,21 %), investisiyalarşmanı (11,1 % ) neft gəlirlərinin yönəldilməli olduğu prioritet istiqamətlər hesab edirlər. Digər tərəfdən diqqəti cəlb edən fakt, rəyi soruşulanların əksəriyyətinin, yəni 61,7%-nin elmə və təhsilə daha çox maliyyənin ayrılmasına üstünlük verməsidir. 28,38% əhalinin sağlamlığına daha böyük önəm verməyin vacibliyini diqqətə çəkir, 24,68% isə hərbi xərclərin artırılmasını istəyir.

“Sizcə, neft gəlirlərinin idarə olunmasını kimə etibar etmək lazımdır?” sualına verilən cavabların təhlili göstərir ki, respondentlərin əksəriyyəti bu proseslə bağlı bütün narazılıqlara, problemlərə baxmayaraq, neft gəlirlərinin idarə olunmasını dövlət strukturlarına etibar edilməsinin tərəfdarlarıdır. Rəyi soruşulanların 66,63 %-i bu proseslərin yalnız rəsmi strukturlar tərəfindən idarə olunmasını istəyir. Bunlardan da 31,48%-i yalnız prezindentə inanır və hesab edir ki, neft gəlirlərinin idarə olunmasını ölkə başçısı birbaşa özü həyata keçirsə daha yaxşı olar. Sorğu iştirakçılarının 24,07%-i bu məsuliyyətli işin Neft Fonduna, 24,07%-i parlamentə, 20,35%-i hökumətə tapşırılmasını məqsədəuyğun hesab edir. 6,17% respondent gəlirlərin idarəçiliyini QHT-lərə, 2,46% isə siyasi partiyalara etibar edə bilər. Respondentlərin 24,74%-i ya bu suala cavab vermək istəməmiş, ya da qoyulmuş cavab variantlarını seçməkdən imtina edərək, tamam fərqli qeydlər aparmışlar. Belə ki, respondentlərin 13,57%-i neft gəlirlərinin idarə olunmasını etibar ediləcəyi yeganə obyekt kimi “xalq” yazıb.

“Neft gəlirləri üzərində ictimai və vətəndaş nəzarətinin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?” sualına verilən cavabların təhlili göstərir ki, vəziyyət ölkə vətəndaşlarını qane etmir və əhali bu sahədə kifayət qədər problemlərin olduğunu düşünür. Belə ki, rəyi soruşulanların yalnız 14,8%-i neft gəlirləri üzərində ictimai və vətəndaş nəzarətinin hazırki vəziyyətini çox müsbət qiymətləndirib. 17,27% mövcud vəziyyəti “kafi” hesab edərək ölkədə hələlik bundan artığına nail olmağın mümkün olmadığı fikrindədir. Respondentlərin 40,72%-i gəlirlər üzərində ictimai və vətəndaş nəzarətinin zəif olduğu və bunu səbəbi kimi ictimaiyyətin kifayət qədər fəal və tələbkar olmadığı fikrindədir. 27,14,8% isə hesab edir ki, ictimai nəzarət, ümumiyyətlə, yoxdur.

Sorğu da iştirak edən respondentlərin 32,07%-i Koalisiyanın fəaliyyətini bu ya digər formada qənaətbəxş hesab edir.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Prezidentliyə namizədlərə müraciət olunub

Sentyabrın 12-də Azərbaycan QHT-lərinin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası və Milli Büdcə Qrupu prezidentliyə namizədlərə müraciətlə çıxış ediblər. Müraciətdə əsas məqsəd namizədlərin diqqətini neft gəlirləri və onların xərclənməsində səmərəlilik, şəffaflıq prinsiplərinə əməl olunması, həmçinin ölkənin hasilat sənayesindəki şəffaflıq prosesində narahatlıq doğuran məqamlara yönəltmək, onları bu məsələlərin həlli istiqamətində aktiv fəaliyyətə təşviq etmək olub.

Müraciətdə bildirilir ki, Azərbaycan iqtisadiyyatının dinamik inkişafı və vətəndaş rifahının təminatı neft gəlirlərinin şəffaflığı və onlardan səmərəli istifadə edilməsindən, eyni zamanda bu prosesdə ictimai iştirakçılığın təmin olunmasından birbaşa asılıdır: “Qoşulduğunuz növbəti prezident seçkisi Azərbaycanın müstəqillik tarixinin ən məsuliyyətli və şərəfli dövrünə təsadüf etməkdədir. İctimaiyyətə təqdim olunacaq proqramlar və seçki platformaları yalniz özündə müasir dövrün aktual və ictimai əhəmiyyətli məsələlərini əks etdirəcəyi tədqirdə uğur qazana bilər. Hazırda aktuallığına və ictimai əhəmiyyətinə görə ön sırada duran məsələlərdən biri neft gəlirlərinin şəffaf və səmərəli idarə olunmasıdır. İctimai maraq kəsb edən bu istiqamətə Sizlərin münasibət bildirməyiniz və prezident seçiləcəyiniz təqdirdə bu sahədə planlaşdırdığınız fəaliyyətinizin seçki platformanızda geniş yer alması vacibdir. Bununla Siz əldə ediləcək neft gəlirlərinin səmərəli və şəffaf idarə olunmasına verəcəyiniz töhfə ilə ictimai diqqəti cəlb edə bilərsiniz.”

QHT birlikləri aşağıdakı məsələlərin namizədlərin platformalarında əksini tapmasını istəyiblər:

- Azərbaycan Respublikası Dövlət Neft Fondu haqqında Qanun qəbul edilməsi yolu ilə Fond vəsaitlərinin idarə olunmasına parlament nəzarətinin təminatı;
- Azərbaycan Respublikası Dövlət Neft Fondu haqqında Əsasnamənin tələblərinə uyğun olaraq Fondun Müşahidə Şurasında ictimai təşkilatların nümayəndələrinin təmsilçiliyinə nail olmaqla ictimai nəzarətin artırılması;
- Beynəlxalq Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulan və Azərbaycanda fəaliyyət göstərən yerli və xarici şirkətlərin fərdi hesabatlılığa keçidi;
- Azərbaycan Respublikası Dövlət büdcəsinin proqramlar əsasında təsnifatı işlərinin sürətləndirilməsi;
- İnvestisiya layihələrinin həyata keçirilməsində ictimai iştirakçılığın təminatı üçün hüquqi və institutsional əsasların yaradılması.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Tranzit gəlirləri də EİTİ-ya cəlb olunmalıdır

Oktyabrın 3-4-də Ukraynanın Odessa şəhərində QHT nümayəndələrinin Orta Asiya və Qafqaz ölkələri MSŞT (EITI) təşəbbüsü çərçivəsində növbəti - 4-cü regional görüşü keçirilib. Görüşdə Monqolustan, Qırğızıstan, Qazaxstan, Gürcüstan, Rusiya, Moldova, Ukrayna və Azərbaycanın, habelə ABŞ-ın Gəlirlərə Nəzarət ( Rewenue Watch ), Bank İnformasiya Mərkəzi (Bank Information Center), MSŞT katibliyi nümayəndələri iştirak edib. Azərbaycanı tədbirdə Koalisiya üzvü İnqilab Əhmədov təmsil edib. Xatırladaq ki, bundan öncə analoji görüşlər 2006-cı ildən başlayaraq Tbilisi, Almatı və Ulan Bator şəhərlədində təşkil olunub.

Qeyd edək ki, bu görüşun Odessada keçirilməsi heç də təsadüfi olmayıb. Belə ki, Ukrayna, Rusiya və Moldovanın da nümayəndələrinin qatıldığı bu görüşdə artıq regional qurumun böyüyərək Avrasiya ölkələrini əhatə etdiyi xüsusi vurğulanıb. Görüşdə müzakirə olunan əsas məsələlərdən biri mədən sənayesi məhsullarının tranzitindən əldə edilən gəlirlərin də MSŞT-yə cəlbini nəzərdə tutan yeni təşəbbüs olub. Qərara alınıb ki, bu istiqamətdə iş davam etdirilsin və növbəti ildə 2 təşəbbüskar ölkədə - Gürcüstan və Ukraynada yeni təşəbbüsün işlənməsi ilə bağlı layihə həyata keçirilsin.

Görüşün digər mühüm hissəsi bu yaxınlarda start götürəcək təsdiqləmə (validation) prosesində QHT-lərin aktiv iştirakını təmin etmək üçün tədbilər planının hazırlanmasına həsr olunub. Təsdiqləmə ilə bağlı məruzə ilə çıxış edən MSŞT katibliyinin regional koordinatoru Samuel Bartlett prosesin əsas qayələri haqqında auditoriyaya ətraflı məlumat verib. Müzakirələrdən sonra qərara alınıb ki, təsdiqləmə ilə bağlı bilik və bacarığın artırılması üçün QHT nümayəndələrinin treyninq proqramlarına böyük ehtiyac duyulur və bü məqsədlə bir neçə olkədə tədbirlər planı hazırlanıb həyata keçirilməlidır.

## İnqilab Əhmədov MSŞT İdarə Heyətinə əvəzedici üzv seçilib

İctimai Vəsaitin Monitorinqi Mərkəzinin rəhbəri İnqilab Əhmədov MSŞT İdarə Heyətinin əvəzedici üzvü seçilib. O, İdarə Heyətinin Afinada keçiriləcək iclasında iştirak edəcək.

Qeyd edək ki, İ.Əhmədov “Ödədiyi açıqla” (PWYP) beynəlxalq təşkilatının Strateji Məsləhət Şurasının üzvlüyündən çıxıb. Onu Şurada Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının milli koordinatoru Qubad İbadoğlu əvəzləyəcək. O, SMŞ-də fəaliyyətə bu aydan etibarən başlayır.

## MSŞT-nin tətbiqində ən yaxşı təcrübə və vasitələr müzakirə olunacaq

Noyabrın 10-14-də Berlində EİTİ Katibliyinin təşkilatçılığı ilə “MSŞT-nin tətbiqi – Ən yaxşı təcrübə və vasitələr ” movzusunda seminar keçiriləcək.

Seminar mövcud təcrübələri bölüşmək üşüb MSŞT-ni tətbiq edən ölkələrin hökümət, biznes və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirəcək.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Seminarda Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasını Şuranın koordinatoru Qubad İbadoğlu təmsil edəcək. Xatırladaq ki, Q.İbadoğlunun namizədliyi EİTİ Katibliyi tərəfindən təsdiqlənib. Bundan əvvəlsə Şura üzvləri arasında aparılmış səsvermə ilə müəyyənləşdirilmiş 3 nəfərin (Q.İbadoğlu, Sabit Bağırov və Fəqan Əliyev) namizədliyi seçim üçün Katibliyə göndərilmişdi.

## Mədən sənayesində kontrakt hüququna dair seminar təşkil olunub



Oktyabrın 25-də Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının üzvləri üçün "Neft və qaz kontraktları hüququ" mövzusunda seminar keçirilib. Seminar Koalisiyanın bilik və bacarıqlarının artırılması istiqamətində proqram fəaliyyətinəı uyğun olaraq təşkil edilib.

Koalisiya üzvlərinin təklifləri əsasında müəyyənləşdirilən mövzu üzrə seminarı Dandi Universitetinin məzunu Nurlan Mustafayev aparıb. O, neft-qaz müqavilələrinin hüquqi aspektləri əsasında hazırlanmış prezentasiya ilə çıxış edərək müqavilələrin əsas növləri, neft müqavilələri rejimlərinin təsnifatı, hasilatın pay bölgüsü müqavilələri, müqaviləyə əsaslanan rejimlər və sistemlər, vergi, gömrük tənzimlənməsi və mübahisələrin həlli barədə ətraflı məlumat verib. N.Mustafayevin təqdimatından sonra mövzu ətrafında sərbəst müzakirələr aparılıb.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Amerikalı tələbələrlə görüş keçirilib



Oktyabrın 29-da Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının Şura üzvləri ABŞ-ın Princeton Universitetinin tələbələri Thomas A. Niblock, James E. Ellis və Nothan J. Shepherd, həmçinin Global Witness (Qlobal Şahid) beynəlxalq təşkilatının ABŞ ofisinin rəhbəri Corinna Gilfillan və onun vəkili Thomas Mayne ilə görüşüblər. Princeton Universitetinin Azərbaycanda EİTİ-ın tətbiqi prosesini tədqiq edən tələbələrinin istəyi ilə baş tutan görüşdə Koalisiyanın koordinatoru Qubad İbadoğlu, Şura üzvləri Dünya Sakit və Əliməmməd Nuriyev iştirak ediblər.

Görüş zamanı Koalisiyanın əlaqələndiricisi Koalisiyanın fəaliyyətini və gələcək planlarını əks etdirən təqdimatla çıxış edib. Daha sonra Koalisiya nümayəndələri tələbələrin çoxsaylı suallarını cavablandırıblar. İştirak edən Şura üzvləri də Koalisiyanın hazırki fəaliyyətinə dair öz fikirlərini bildirdilər. Qonaqların MSŞA Koalisiyasının Hökumət komissiyası və şirkətlərlə təmas imkanları, bu sahədə üzləşdiyi problemlər, Azərbaycanda təmsil olunan beynəlxalq təşkilatlar, diplomatik missiyalar tərəfindən vətəndaş cəmiyyətinə, xüsusən də MSŞA Koalisiyana hansı yardımların göstərilməsi barədə sualları ətraflı cavablandırılıb. Amerikalı tələbələr EİTİ prosesinin başlanmasından sonra Azərbaycanın neft sənayesinə dair məlumat açıqlığı səviyyəsində dəyişikliklər, ölkə mətbuatının bu prosesə münasibəti, ümumilikdə Azərbaycanda söz və mətbuat azadlığı səviyyəsi və bu amilin hasilat sektorundakı problemlərin işıqlandırılmasına təsiri və digər məsələlərlə da maraqlanıblar.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Şəffaflıq Təşəbbüsünə dair qətnamə BMT Baş Assambleyasında qəbul olunub

Sentyabrın 11-də BMT Baş Assambleyasının 62-ci sessiyasının plenar iclasında Azərbaycanın təşəbbüsü ilə hazırlanmış qətnamə konsensusla qəbul edilib. Qətnaməyə əsasən, Mədən Sənayesində Şəfaflıqıq Beynəlxalq Təşəbbüsünə qoşulmaq BMT üzvü olan bütün ölkələrə tövsiyə edilib.

Xatırladaq ki, "Sənaye sahələrində şəffaflığın gücləndirilməsi" adlı qətnaməni Azərbaycan hökuməti hazırlayıb. Ötən ildən qətnamənin BMT səviyyəsində qəbuluna hazırlıq prosesi başlanıb. İlkin vaxtlarda xeyli sayda ölkə onun qəbulunun əleyhinə çıxmışdı. EİTİ İdarə Heyətinin iclasında çıxış edən Azərbaycanda Təşəbbüsün icrası prosesində Hökumət Komissiyasına rəhbərlik edən Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov bunun iki mühüm səbəbinin olduğunu vurğulamışdı. Bunlardan birincisi bir sıra dövlətlərin MHŞT-nin təbii sərvətləri olan ölkələrə nəzarət mexanizmi kimi qəbul etmələri, digəri isə inkişaf etmiş sərvətli ölkələrin ona qoşulmamasıdır. Azərbaycan hökuməti və EİTİ katibliyinin birgə fəaliyyəti nəticəsində narazılıqlar müəyyən qədər azaldı və qətnamə layihəsi BMT Baş Assambleyasında konsensus yolu ilə qəbul olundu.

✵ ✵ ✵

## İsveç MSŞT-ni dəstəkləyir

Isveç hökuməti Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünü (MSŞT) dəstəklədiyini elan edib. İsveçin dövlət katibi Gunnar Vieslander MSŞT katibliyinin rəhbəri Piter Eygenle görüşündə öz hökümətinin Təşəbbüsü və mədən sənayesi sektounda fəaliyyət göstərən İsveç şirkətlərini dəstəklədiyi deyib.

Piter Eygen isə öz növbəsində bildirib: “İsveç uzun müddətdir ki, şəffaflıq və məlumatların açıqlığı sahəsində vəkilliyin önündə gedir. İsveç təcrübəsi göstərib ki, məlumatların açıqlığı etibarlılıq, hesabatlılıq və iqtisadi artım mühitini stimullaşdıran əsas amillərdəndir. MSŞT-nin dəstəklənməsi üçün İsveçin götürdüyü öhdəlik Təşəbbüsü mədən sənayesində şəffaflığın artması üçün qlobal standarta çevirmək sahəsində səylərimizi artıqmaq üçün çox vacibdir”.

✵ ✵ ✵

## BTC-dəki yanğın builki gəlirimizi 1 milyard dollar azaldıb

Bakı-Tbilisi-Ceyhan boru kəmərində baş verən yanğın (avqustun əvvəlində) və bunun nəticəsində kəmərlə neftin ixracının dayanması ilə əlaqədar bu il Azərbaycanın tam ala bilməyəcəyi vəsaitlərin həcmi təxminən 1 mlrd. dollara bərabərdir. Bu barədə “Trend” İnformasiya Agentliyinə müsahibəsində qeyd edən Dövlət Neft Fondunun icraçı direktoru Şahmaq Mövsümov həmin vəsaitlərin itirilmədiyini bildirib: “Bu, itmiş mənfəət deyil. Bu vəsait gələn il əldə ediləcək”.

Qeyd edək ki, BTC-də qəza baş verən zaman dünya bazarında neftin 1 barelinin qiyməti 130-140 dollar aralığında dəyişirdi. Hazırda isə bu qiymət 68-75 dollar civarındadır. Əksər beynəlxalq institutlar neftin qiymətindəki bu səviyyəinin ən azı 2009-cu ilin 2-rübünədək davam edəcəyini proqnozlaşdırırlar. Hətta dünyanın ən böyük neft

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

istehsalçılarını birləşdirən OPEK-in noyabrdan etibarən hasilatı azaltmaq barədə qərar qəbul edəcəyi təqdirdə də qiymətlərdə ciddi artımın olacağı ehtimalı yüksək qiymətləndirilmir.



Yeri gəlmişkən, DNF aktivlərinin həcmi ilk dəfə olaraq 10 milyard ABŞ dollarını ötərək sentyabrın 4-nə 10 milyard 216 milyon dollar təşkil edib. Fonddan bununla bağlı yayılan açıqlamada cari ilin əvvəlində 2,5 milyard dollar olan aktivlərdəki bu artım uğurlu neft strategiyasının nəticəsi kimi dəyərləndirilib.

❋ ❋ ❋

## "Azəri-Çıraq-Günəşli"də qazsızması baş verib
## Əsas platformalarda hasilat 1 aya yaxın dayandırılıb



Sentyabrın 17-dən etibarən Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yatağındakı "Mərkəzi Azəri" platformasından hasilat dayandırılıb, işçi personal oradan köçürülüb. Layihənin operatoru olan bp-Azərbaycan şirkətindən və Azərbaycanın Sənaye və Energetika Nazirliyindən verilən rəsmi məlumata əsasən buna səbəb platformanın yaxınlığında mənşəyi məlum olmayan qazsızmasıdır: «Qaz platformada quraşdırılan

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

detektorlar vasitəsilə aşkar olunub. Təhlükəsizlik məqsədi ilə platformanın personalı oradan köçürülb», - deyə şirkətdən bildiriblər.

Qeyd edək ki, «Mərkəzi Azəri» yataqlardan hasil edilən neft və qazın nəqli zəncirində əsas həlqəni təşkil edir: «Qərbi Azəri», «Şərqi Azəri» platformalarından hasil edilən neft və qaz «Mərkəzi Azəri» platformasına, buradan da Səngəçal terminalına tədarük edilir. "Mərkəzi Azəri"dəki qazsızma üzündən ehtiyat məqsədilə yatağın qərb hissəsində - "Qərbi Azəri" platformasından da hasilat dayandırılıb. "Azəri" yatağının şərq hissəsində quraşdırılmış platformada isə hasilat davam etdirilir. İki mühüm platformadan hasilatın dayandırılması bütövlükdə yataqda hasilat həcminin ikiqat azalmasına səbəb olub. Belə ki, sentyabrın 17-dək 900 min barel təşkil edən gündəlik hasilat 3 gündən sonra 450 min barelə düşüb.

ARDNŞ prezidenti Rövnəq Abdullayev "Azəri" yatağının mərkəzi hissəsində platformada işlərin dayandırılmasına quyunun dibindən qazın sızmasının səbəb ola biləcəyi ehtimalını irəli sürsə də, bir sıra müstəqil ekspertlər səbəb kimi tamamilə başqa amilin üzərində dayanıblar. Belə ki, "Trend" Agentliyinə müsahibə verən ekspertlər hesab edirlər ki, "Mərkəzi Azəri" yatağında neft hasilatının dayandırılmasına "qrifon" - qaz axınının qazvurma quyusunun sütunkənarı boşluğu vasitəsilə səmərəli üfüqdən dənizin səthinə daxil olması səbəb olub: ""Qrifon" platformanın davamlılığına böyük təhlükə ola bilər. Belə ki, qaz axını platformanın altında dənizin dibinin üst hissəsini yuya bilər. Bu hadisənin qarşısını almaq üçün quyuda sement körpülərinin quraşdırılması ilə onu ləğv etmək, həmçinin müəyyən dərinlikdə və dənizin dibində quyu ətrafındakı məkanı betonlaşdırmaq lazımdır." Lakin ARDNŞ-dən bu fikri qətiyyətlə rədd ediblər: "Buna «qrifon»nun səbəb olmasına dair bütün bəyanatlar əsassızdır və həqiqətə uyğun deyil". Şirkətdən bildiriblər ki, qazsızmasının dəqiq səbəblərinin müəyyən edilməsi üçün ən yaxşı mütəxəssislər tərəfindən araşdırma aparılır. Bu səbəblər müəyyən olunandan sonra onların aradan qaldırılmasına başlanacaq və platforma yenidən istifadəyə veriləcək. R.Abdullayev tədqiqat işlərinə xarici mütəxəssislərin cəlb olunduğunu və dənizin dibindən dalğıcların götürdüyü materialların Londondakı laboratoriyalarda analiz olunduğunu qeyd edib.

Oktyabrın 10-da bp şirkətinin yaydığı açıqlamada "Qərbi Azəri" platformasından neft hasilatının bərpa oluduğu bildirilib. Platformaya enerji təminatı "Şərqi Azəri"dən verilib.

✵ ✵ ✵

## Qazaxıstan neftinin Bakı-Ceyhanla nəqlinə başlanır

Oktyabrın 2-ci yarısından etibarən Qazaxıstanın "Tengiz" yatağından hasil olunan neftin Bakı-Tiflis-Ceyhan neft kəmərinə vurulmasına başlanacaq. Bu barədə bp şirkətinin saytında yerləşdirilən məlumata görə, neftin noyabrın ortalarında Türkiyənin Aralıq dənizi sahilində yerləşən Ceyhan limanında tankerlərə yüklənməsinə başlanacağı nəzərdə tutulur. Bununla yanaşı, şirkətin məlumatında bildirilir ki, bu əməliyyat Azərbaycanın «Azəri-Çıraq-Günəşli» strukturunda baş verən qəza ilə birbaşa əlaqədar deyil: «Bu kəmərdə həmişə əlavə neft həcmləri üçün boş yer olub».
Şirkət mütəxəssislərinin sözlərinə görə, «Tengiz»də hasil olunan xam neftin kəmərlə nəql edilən xammalın ümumi həcmində payının az olması son nəticədə Ceyhandan satılan daha keyfiyyətli Azərbaycan neftinin (Azeri Light) tərkibində ciddi dəyişikliklərə səbəb olmayacaq.

«ChevronTexaco» («Tengiz»də operator) quru yatağından hasil edilən nefti dəmir yolu vasitəsilə Qazaxıstanın Xəzər Aktau limanına tədarük edəcək, daha sonra xammal

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

oradan tankerlərlə Bakıya ixrac olunacaq. Neft Bakı limanından BTC boru kəmərinə girişin olduğu Səngəçal terminalına (operator BP) tədarük olunacaq, həmçinin dəmir yolu ilə Gürcüstanın qara dəniz limanlarına göndəriləcək.

"Trend" Agentliyinin «ChevronTexaco» ilə danışıqlara yaxın olan məlumatlı mənbəyə istinadən yaydığı məlumata görə, şirkət üçün Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql üzrə tariflər bir barelə 4 ABŞ dolları təşkil edəcək ki, bu da bu marşrut üzrə xammal nəqli üçün iqtisadi cəhətdən cəlbedici göstəricidir. «ChevronTexaco» "Unocal"ın biznesini əldə etdikdən sonra Bakı-Tbilisi-Ceyhan boru kmərində iştirakın 8,9 faizinə sahib olub.

Hazırda «ChevronTexaco» öz neftini Xəzər boru kəməri konsorsiumunun (XBK) neft kəməri vasitəsilə Novorossiysk limanınadək tədarük edir. 2007-ci ildə «Tengizşevroyl» 13,9 milyon ton neft hasil edib ki, bunun da 12,8 mln. tonu XBK ixrac boru kəməri ilə və Novorossiysk limanına tədarük olunub. Neftin bir hissəsi dəmir yolu ilə Odessaya göndərilib. Şirkət bu ilə olan proqnozlara əsasən, neft hasilatını 1,5-2 dəfəyədək artırmaq niyyətindədir ki, bu da xammalın nəqli üçün yeni marşrutların mövcudluğuna zərurət yaradır. Azərbaycan belə bir marşrutlardan olub. Neftin BTC boru kəməri ilə nəqlindən başqa, şirkət məhsulları dəmir yolu vasitəsilə də Azərbaycandan keçməklə Gürcüstanın Qara dəniz Batumi və Kulevi limanlarına nəql etmək niyyətindədir.

Qeyd edək ki, BTC layihəsinin səhmdarı olan dörd şirkət (ENI, INPEX, ConocoPhillips və Total) Qazaxıstanın «Kaşaqan» yatağında fəaliyyət göstərir və BTC neft kəmərində 15 faizlik iştirak payına malikdir. Bu o deməkdir ki, şirkətlər boru kəməri (Boru kəmərinin layihə üzrə nəql gücü sutkada 1 mln.barel neft təşkil edir) ilə sutkada təqribən 150 min barel neft nəql edəcək.

Yanvar ayında Astana Qazaxıstanın Neft Nəqli üzrə Xəzər Sisteminin (KCTS) yaradılmasına dair sənəd imzalayıb. Sənədə əsasən, neft BTC boru kəmərinə nəql olunacaq. Onun dəyəri 3 mlrd. ABŞ dolları qiymətləndirilir. KCTS Xəzərin Qazaxıstan sahilində yerləşən terminallar, Kurık limanınadək olan boru kəməri və tanker donanmasından ibarət olacaq. Nəql sistemininn yaradılmasına KCTS-in təsis edilməsinə dair memorandum imzalayan «Kaşaqan» və «Tengiz» layihələrinin iştirakçıları sərmayə yatıracaqlar.